HÜQUQ elmləri

UOT 341
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2072

# MİLLİ MƏDƏNİ İRSİN QORUNMASI DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTİ KİMİ

**ƏLİZADƏ QURBANƏLİ OĞLU MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: elizade.memmedov@mail.ru*

**KƏRƏM CAHANGİR OĞLU MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*
*E-mail: kerem_mamedov@mail.ru*

**XÜLASƏ**

Məqalədə mədəni irsin qorunması Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqaməti kimi təhlil olunur. Burada dövlət siyasətinin xüsusiyyətləri araşdırılır. Dövlət siyasətinin əsas istiqaməti olaraq beynəlxalq əməkdaşlıq zərurəti, əməkdaşlığın formaları analiz edilir. Xüsusilə Azərbaycan Respublikasının UNESCO ilə əməkdaşlığı təhlil edilir. Eyni zamanda cəmiyyətin mədəni irsin qorunması sahəsində əməkdaşlıqda iştirak xüsusiyyətləri araşdırılır. Bu istiqamətdə Heydər Əliyev Fondunun fəaliyyəti təhlil edilir.

**Açar sözlər:** *mədəni irs, mədəni sərvətlər, dövlət siyasəti, mədəniyyət, milli-hüquqi qoruma, beynəlxalq hüquqi qoruma.*

Müasir dövrdə siyasi, iqtisadi, hüquqi sahələrdə beynəlxalq inteqrasiya, mədəni sahədə, mədəniyyətlərarası əməkdaşlığın olmasını şərtləndirir. Mədəniyyətlərarası əməkdaşlıq sistemində mədəni irsin qorunması problemi xüsusi əhəmiyyətə malikdir. Bu kontekstdə Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasəti Azərbaycan Respublikasının əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan daxili və xarici dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli 273 sayl Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasına (bundan sonra – Konsepsiya) [10] əsasən, mədəni irsin qorunması Azərbaycan xalqının bütövlüyünün qorunması şərti ilə, mədəniyyət siyasətinin təminat mexanizmlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, yaradıcılığın dəstəklənməsi və inkişafının təmin edilməsi ilə yanaşı Mədəniyyət Konsepsiyasının əsas məqsədini təşkil edir. Konsepsiya AR Prezidentinin sərəncamı ilə təsdiq edilən Dövlət Proqramları vasitəsilə həyata keçirilir [sima, s. 141]. Nümunə qismində AR Prezidentinin 06 oktyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilən AR-də kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramını və 27 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramını göstərmək olar. Qeyd olunan məqsədə nail olunması istiqamətində bilmək lazımdır ki, milli mədəni irs Azərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə əks etdirməklə onu beynəlxalq miqyasda tanıdan vasitə qismində çıxış edir. Bu səbəbdən mədəni irsin (maddi və qeyri-maddi) qorunması, Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Bu Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" 2012-ci il Qanununda [9] nəzərdə tutulur. Yalnız "Mədəniyyət haqqında" Qanun bu istiqaməti "mədəni sərvətlərin qorunması və artırılması" kimi müəyyən edir (m. 3.2.4).

İstər Konsepsiya, istərsə də "Mədəniyyət haqqında" Qanun mədəniyyət sahəsində dövlət siyasətinin müəyyən prinsiplər əsasında həyata keçirilməli olmasını müəyyən edir. Mədəni irsin qorunması üzrə dövlət siyasəti üçün həmin prinsiplərdən, varislik, dünyəvilik və inteqrasiya kimi prinsiplər daha çox əhəmiyyət kəsb edir. "Mədəniyyət haqqında" Qanuna görə, varislik mədəni sərvətlərin, bu sahədə bilik və təcrübənin sonrakı nəsillərə ötürülməsidir (m. 4.0.9). Göründüyü kimi, milli qanunvericilik mədəni irslə bağlı müxtəlif: "dəyər", "mədəni sərvət", "maddi irs", "qeyri-maddi irs" və s. kimi anlayışlardan istifadə edir. İlk olaraq qeyd edək ki, müxtəlif anlayışlardan istifadə edilməsi beynəlxalq sənədlər üçün də xarakterikdir. Hesab edirik ki, mədəni irsin qorunması üzrə dövlət siyasətinin səmərəli həyata keçirilməsi istiqamətində milli qanunvericilikdəki anlayış müxtəlifliyinə aydınlıq gətirmək

zəruridir. Və bu problemə "Mədəniyyət haqqında" Qanun müstəvisində yanaşmaq daha düzgün olardı. Belə ki"Mədəniyyət haqqında" Qanunda "dəyər", "sərvət" və "irs" anlayışlarına aydınlıq gətirilir. Əslində "dəyər" anlayışı mədəni sərvətlərin elmi, tarixi, estetik və s. əhəmiyyətini formalaşdıran xüsusiyyətləri ifadə edir. "Mədəni sərvətlər" anlayışı isə mənəvi və estetik ideallar, əxlaq normaları və nümunələri, dillər, dialektlər və ləhcələr, milli adət və ənənələr, tarixi toponimlər, folklor, bədii sənət və peşələr, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət əsərləri, nəşriyyat məhsulları, mədəniyyət sahəsində elmi tədqiqatların nəticələri və metodları, tarixi-mədəni əhəmiyyətə malik binalar, tikililər, əşyalar, tarixi-mədəni əhəmiyyətli unikal təbii ərazilər və obyektlər, məqbərələr, qoruqlar, arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyaları ifadə edir. "Mədəniyyət haqqında" Qanunun 30-cu maddəsinə müvafiq olaraq mədəni sərvət dedikdə aşağıdakılar başa düşülür: 1) hər bir xalqın mədəni irsi üçün əhəmiyyəti olan daşınar və ya daşınmaz sərvətlər (memarlıq, incəsənət və ya tarixi, dini və ya dünyəvi abidələr; arxeoloji qazıntı yerləri; tarixi və ya bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları; incəsənət əsərləri; bədii, tarixi və ya arxeoloji əhəmiyyəti olan əlyazmalar, kitablar və digər əşyalar; elmi kolleksiyalar; kitab və arxiv materiallarının, yaxud yuxarıda göstərilən sərvətlərin reproduksiyalarının mühüm kolleksiyaları); 2) əsas məqsədi daşınar mədəni sərvətlərin saxlanması və ya sərgilənməsi olan binalar (muzeylər, kitabxanalar, arxivlər, habelə daşınar mədəni sərvətləri silahlı münaqişə zamanı saxlamaq üçün istifadə olunan sığınacaqlar); 3) 1-ci və 2-ci bəndlərdə qeyd olunmuş mədəni sərvətlərin cəmləşdiyi mərkəzlər. Mədəni sərvətlərə aşağıdakılar aiddir: 1) təsviri sənət əsərləri, o cümlədən lövhələr, şəkillər, rəsmlər, qravürlər, estamplar, litoqrafiyalar, naxışlar, heykəltəraşlıq əsərləri, orijinal bədii toplular və montajlar; 2) kino, xüsusi əhəmiyyətli televiziya, radio, video materialları, fotoəsərlər və fotomateriallar, dizayn işləmələri və memarlıq layihələri; 3) əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar, elmi-tarixi yadigarlar, nadir nəşrlər; 4) tətbiqi-sənət əsərləri - xalılar və xalça məmulatları, qızıl, platin, gümüş, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, keramika məmulatı; 5) səhnə və ekran əlbisələri, dekorları, butaforiya və rekvizitləri; 6) qədim nadir kolleksiyalar və otuz ildən çox tarixi olan muzey əhəmiyyətli əşyalar (o cümlədən mebel, musiqi alətləri və s.); 7) şifahi xalq yaradıcılığı nümunələri; 8) arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyalar; 9) memarlıq abidələri, tikili nümunələri, xatirə yerləri və məqbərələr; 10) park və təbii landşaft obyektləri; 11) flora və fauna, mineralogiya, anatomiya nümunələri və paleontologiya baxımından maraqlı muzey əşyaları.

"Mədəni irs" anlayışı tarix, incəsənət və elmi nöqteyi-nəzərdən universal dəyərlərə malik mədəniyyət nümunələrinin və abidələrinin, mədəni məkanların və əşyaların məcmusunu ifadə edir. Göründüyü kimi, "mədəni irs" anlayışı ümumiləşdirici anlayış olmaqla digər anlayışlara münasibətdə daha geniş məzmuna malikdir. Bu baxımdan tədqiqat işində məhz "mədəni irs" anlayışından istifadə ediləcəkdir.

Konsepsiya və "Mədəniyyət haqqında" Qanun mədəni irsin qorunması siyasətinin maddi və qeyri-maddi mədəni irsi fərqləndirməklə həyata keçirilməsini müəyyən edir. "Mədəniyyət haqqında" Qanuna görə, qeyri-maddi mədəni irs - icmalar, qruplar və bəzi hallarda ayrı-ayrı şəxslər tərəfindən onların mədəni irsinin bir hissəsi kimi qəbul edilən təcrübələri, təqdimatları, ifadələri, bilik və bacarıqları, eləcə də bunlarla bağlı alətləri, əşyaları, maddi mədəniyyət abidələrini və mədəni məkanları bildirir və özündə aşağıdakıları ehtiva edir: 1 ) diyarşünaslıq (adət və ənənələr, bayram və mərasimlər, tarixi rəmz nümunələri və sirlər); 2) folklor (ifaçılıq, musiqi və rəqslər, şifahi yaradıcılıq, oyun və tamaşalar); 3) sənətkarlıq (tətbiqi sənət, ənənəvi dekorativ sənət, milli təsviri yaradıcılıq) (m .36.4). Daşınmaz mədəni irsin (daşınmaz arxeoloji, memarlıq, bağ-park, monumental, xatirə abidələri, dekorativ-tətbiqi sənət nümunələri, o cümlədən mədəniyyət, memarlıq, bədii, etnoqrafiya, təbiət abidələri və tarixi qoruqlar, mədəniyyət məkanları, məqbərələr, arxeoloji komplekslər, memarlıq ansamblları, dini ocaqlar və etnoparklar) və daşınar mədəni irsin (tarixi, təbii, arxeoloji, sənədli, etnoqrafik, kulinar, bədii, elmi-tədqiqat, rəsm, incəsənət, kinematoqrafiya, numizmat, filatelist, heraldik, biblioqrafiya, epiqrafiya, estetik, etnoloji və antropoloji daşınar sərvətlərin məcmusu) məcmusu maddi mədəni irsi formalaşdırır

Konsepsiya və "Mədəniyyət haqqında" Qanun, inteqrasiya prinsipinə uyğun olaraq mədəni irsin qorunması siyasətinin həyata keçirilməsində beynəlxalq əməkdaşlıq edilməsini də zəruri hesab edir. Belə ki, mədəni irsin qorunmasında milli qanunvericiliklə yanaşı, beynəlxalq müqavilə normalarından da geniş istifadə edilməsi problemin mahiyyətindən irəli gəlir. Belə ki, milli mədəni irsi beynəlxalq əməkdaşlıq olmadan yalnız milli hüquq çərçivə-

sində mühafizə etmək müasir dövrdə mümkün deyildir. Məsələn, Azərbaycan muğamını beynəlxalq səviyyədə tanıtmadan milli mədəni irs kimi xarici dövlətlər tərəfindən ediləcək hər hansı təhdidlərin qarşısını almaq, 30 ilə yaxın bir müddət ərzində Ermənistanın işğalı altında olmuş Qarabağ ərazisində yerləşən mədəni irs abidələrimizi məhv olmaqdan xilas etmək və s. beynəlxalq əməkdaşlıq olmadan qeyri-mümkündür. Beynəlxalq əməkdaşlıq isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir (“Mədəniyyət haqqında” Qanun, m.49.2; “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Qanun, m.9). Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikası mədəni irsin qorunması ilə baglı mövcud olan əsas beynəlxalq müqavilələrə qoşulmuşdur: 1) “Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında” 1954-cü il Konvensiyasına və I Protokola 1993-cü ildə, II Protokola 2000-ci ildə; 2) “Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında” 1972-ci il UNESCO Konvensiyasına 1993-cü ildə; 3) “Mədəni sərvətlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında” 1970-ci il Konvensiyasına 1997-ci ildə; 4) “Arxeoloji irsin qorunması haqqında” 1992-ci il Avropa Konvensiyasına 1999-cu ildə; 5) “Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni sərvətlər haqqında” 1995-ci il UNİDRUA Konvensiyasına 2000-ci ildə; 6) “Qeyri-maddi mədəni irsin qorunması haqqında” 2003-cü il UNESCO Konvensiyasına 2006-cı ildə; 7) “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında” 2005-ci il Konvensiyasına 2009-cu ildə.

Buradan belə bir ilkin nəticəyə gəlmək olar ki, mədəni irsin qorunması dövlətdaxili və beynəlxalq hüququn birgə tənzimetmə obyektini təşkil edir. Amma tənzimetmə obyekti kimi mədəni irsin qorunması məsələsi milli hüququn tənzimetmə sferasından tam olaraq çıxmır, sadəcə, milli hüquq ümumi qaydasını (ordre public) qorumaq şərti ilə qorunması məsələsinin həlli üzrə səlahiyyətləri beynəlxalq hüquqla bölüşür. Bu zaman beynəlxalq hüquq milli hüquq sistemi üçün ümumi “hüquqi standart” qismində çıxış edir [7, 231-239]. Əslində bunu təbii proses kimi qəbul etmək lazımdır. Çünki qloballaşmanın dövlətə və onun hüququna təsirinin əhəmiyyətli hissəsi məhz beynəlxalq hüquq vasitəsilə həyata keçirilir [6, 262]. Bu baxımdan beynəlxalq hüququn Azərbaycan Respublikasının mədəni irsin qorunması ilə bağlı qanunvericiliyinin təkmilləşdirilməsinə əsaslı təsir etməsi və bunun nəticəsində mədəni irsin mühafizəsində Azərbaycan Respublikasının qanunvericiliyində beynəlxalq-hüquqi standartların nəzərə alınması danılmazdır. Bununla dövlət, bir tərəfdən, daxili hüququ ilə özünün beynəlxalq-hüquqi öhdəlikləri arasında baş verə biləcək ziddiyyətlərdən qaçmağa çalışır, digər tərəfdən, öz hüququnun inkişafını təmin edir [8,329]. Əslində hər bir dövlət üzərinə götürdüyü beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək üçün daxili qanunvericilik sisteminin bu öhdəliklərə uyğun olmasını təmin etməlidir. Yeri gəlmişkən iştirakçı dövlətlər iştirak etdikləri müqavilələrin yerinə yetirilməsi məqsədilə qəbul etdikləri qanunvericilik və tənzimləyici qaydalar və digər tədbirlər barədə hesabatlar təqdim edirlər (“Qeyri-maddi mədəni irsin qorunması haqqında” 2003-cü il UNESCO Konvensiyası, m.29). Bu, beynəlxalq hüquq normalarının həyata keçirilməsinin ən optimal yolu olmaqla [3, 66] beynəlxalq hüququn pacta sunt servanda prinsipinin məzmunundan irəli gəlir və “Müqavilələr hüququ haqqında” 1969-cu il Vyana Konvensiyasında [11] (m. 26) təsbit olunmuşdur.

“Mədəniyyət haqqında” Qanuna müvafiq olaraq, beynəlxalq əməkdaşlıq bu sahədə Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətini təşkil edir (m.49.1). Mədəni irsin qorunması üzrə beynəlxalq əməkdaşlıq dövlətlərarası səviyyədə və fiziki və hüquqi şəxslər səviyyəsində və qarşılıqlı mənfəətə əsaslanmaqla müxtəlif forma və istiqamətlərdə həyata keçirilir: 1) birgə arxeoloji qazıntıların aparılması; 2) muzeylərin, arxivlərin, kitabxanaların və s. əməkdaşlığı; 3) beynəlxalq sərgilərin təşkili və keçirilməsi; 4) mədəni sərvətlərin qanunsuz ticarəti ilə mübarizə və s. Bu formalar içərisində milli mədəni irsin tanıdılması və qorunması istiqamətində beynəlxalq təşkilatlarla əməkdaşlıq xüsusi önəm daşıyır.

Azərbaycan Respublikasının milli mədəni irsin qorunması sahəsində beynəlxalq əməkdaşlıq siyasətinin həyata keçirilməsində beynəlxalq təşkilatlarla, xüsusilə UNESCO ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Belə ki, UNESCO, bir tərəfdən, 190-dan çox dövləti özündə birləşdirir, digər tərəfdən, aparıcı beynəlxalq təşkilatla (İSESCO, İNTERPOL, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Afrika Birliyi Təşkilatı, Ərəb Dövlətləri Liqası və s.) əlaqələrə malikdir. Azərbaycan Respublikası - UNESKO əməkdaşlığının əsasında qədim tarixə və mədəniyyətə malik Azərbaycanın mədəni irsinin dünyaya bəyan edilməsi, mədəniyyət və incəsənət nümunələrinin zənginliyinin göstərilməsi dayanır. Bu məqsədlər

yekunda Azərbaycan Respublikasının mədəniyyətinin və incəsənətinin beynəlxalq səviyyədə təsdiqinə, beynəlxalq arenada mədəni və qədim tarixə malik dövlət kimi qəbul edilməsinə, turizmin inkişafına, mədəni-tarixi sərvətlərin qorunaraq gələcək nəsillərə ötürülməsinə şərait yaradır [5, s. 182].

1991-ci ilin oktyabrında dövlət müstəqilliyi bərpa etmiş Azərbaycan Respublikasının xarici siyasət strategiyasında UNESCO ilə əməkdaşlıq xüsusi yer tutur. UNESCO mədəniyyət sferasında universal beynəlxalq təşkilat olduğu üçün onunla əməkdaşlıq beynəlxalq arenaya çıxmaq baxımından daha əhəmiyyətlidir. Azərbaycan BMT-nin ixtisaslaşmış qurumu olan UNESCO-ya 1992-ci iyulun 3-də daxil olmuşdur. Xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən bu təşkilatla Azərbaycanın əlaqələrinin genişləndirilməsi isə 1993-cü ilin ikinci yarısından başlamışdır. 1994-cü il noyabr ayının 18-də Azərbaycan Prezidenti Heydər Əliyev və UNESCO-nun baş direktoru Federiko Mayor Azərbaycan Respublikası ilə UNESCO arasında əməkdaşlıq haqqında memorandum imzalandı. Memorandumda respublikamıza təhsil, mədəniyyət və digər sahələrdə yardımların göstərilməsi nəzərdə tutulurdu. Burada Azərbaycanın Mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdır. Təhlil göstərir ki, Mədəni sərvətlərin qanunsuz olaraq ölkədən aparılması, gətirilməsi və onların barəsində mülkiyyət hüququnun başqasına verilməsini qadağan etmək yolları haqqında 1970-ci il Konvensiyasının (Azərbaycan Respublikası 1997-ci ildən Konvensiyaya qoşulub) [2, c.1, s. 813-821] müddəalarını əsas götürməklə Azərbaycanın işğal olunmuş ərazilərindəki maddi mədəniyyət abidələrinin qaytarılması, mühafizəsi və bərpası istiqamətində UNESCO ilə əməkdaşlığı müsbət nəticələr verə bilər.

Azərbaycanın UNESCO-dakı siyasətinin əsas istiqamətlərini Milli Komissiya müəyyən edir. UNESCO-nun Nizamnaməsinin 7-ci maddəsinə görə, üzv-dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini UNESCO -nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Ona görə də Prezident Heydər Əliyevin 1994-cü il tarixli sərəncamı ilə UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılmışdır. UNESCO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 sentyabr 2005-ci il tarixində UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır. Sərəncama əsasən UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi müəyyənləşdirilmişdir. Hazırda Azərbaycanın UNESCO əməkdaşlığı ilə bağlı gündəlik operativ iş Bakıda Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiyanın Daimi Katibliyi və Parisdə Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi tərəfindən həyata keçirilir [16]. Son dövrlərdə Azərbaycan Respublikası və UNESCO arasında əməkdaşlıq müntəzəm xarakter almışdır. Belə ki, 22-24 iyun 2010-cu il tarixində Qeyri-maddi mədəni irsin qorunması üzrə Konvensiyanın iştirakçı dövlətlərinin Baş Assambleyasının UNESCO-nun Baş Qərargahında keçirilən növbəti 3-cü sessiyasında Azərbaycan Respublikası Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəyə üzv qəbul edilmişdir. Qeyd edək ki, Konvensiyaya əsasən, Komitəyə üzvlər ədalətli coğrafi bölgü və ədalətli rotasiya prinsiplərinə əməl edilməklə Baş Assambleyada dörd il müddətinə seçilirlər (m.6). Komitə konkret məsələlər barədə məsləhətləşmələr aparmaq məqsədilə istənilən dövlət orqanını və ya özəl qurumu, eləcə də qeyri-maddi mədəni irslə bağlı müxtəlif sahələr üzrə ixtisaslaşmış mütəxəssislər kimi tanınan istənilən fiziki şəxsi öz iclaslarına dəvət edə bilər (m.8). Bundan başqa, Komitə qeyri-maddi mədəni irs sahəsi üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının akkreditasiyası barədə təklifləri Baş Assambleyanın müzakirəsinə təqdim edir. Komitəyə münasibətdə bu təşkilatlar məsləhət xarakterli funksiyalar yerinə yetirir (m.9). Göründüyü kimi, Heydər Əliyev Fondunun və onun prezidentinin Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitə kimi konvension orqanla əməkdaşlıq etməsi üçün Konvensiya hüquqi əsaslar müəyyən edir. Azərbaycanın UNESCO-ya üzv qəbul olmasının 20 illiyi münasibəti ilə 2013-cü il iyulun 18-də Parisdə qurumun baş qərargahında Azərbaycan Hökuməti ilə UNESCO arasında Təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi imzalanmışdır. Azərbaycan tərəfdən sənədi mədəniyyət və turizm naziri, UNESCO tərəfdən isə baş direktor İrina Bokova imzalamışlar. Bu Saziş təhsil, mədəniyyət, ətraf mühitin qorunması sahələrində Azərbaycan və UNESCO-nun birgə səylərini dəstəkləyən fondun yaradılması istiqamətində mühüm addımdır. Bütün bunlar və Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 8-ci sessiyasının 2013-cü ilin dekabrında Bakıda keçirilməsi əməkdaşlığın miqyasını və Azərbaycan

rəhbərliyinin UNESCO ideyalarının təbliğinə yüksək diqqət göstərməsinin təcəssümüdür.

Mədəni irsin qorunması sahəsində siyasətini həyata keçirən dövlət, vətəndaş cəmiyyətinin mədəni irsin qorunması sahəsində fəal iştirak etməyə həvəsləndirməklə əməkdaşlıq etmək üçün dövlət, özəl və qeyri-kommersiya təşkilatları ilə və onların öz arasında əməkdaşlığın inkişafını təşviq edir və dəstəkləyir. Dövlət, mədəniyyət sahəsində həyata keçirilən tədbirlərin təşkilində və icrasında mədəniyyət sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, o cümlədən yaradıcılıq birlikləri ilə əməkdaşlıq edir. Qeyd edək ki, qeyri-dövlət səviyyəsində fəaliyyət bir qayda olaraq qeyri-hökumət təşkilatları, fondlar və s. tərəfindən həyata keçirilir. Mədəni əməkdaşlığın həyata keçirilməsində qeyri-dövlət sektorunun iştirakına nümunə qismində Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək olar.

Heydər Əliyev Fondu Azərbaycan-UNESCO münasibətlərinin inkişafında və onun yeni inkişaf mərhələsinə keçməsində əhəmiyyətli rol oynamışdır. Əslində Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın mədəni irsin mühafizəsində iştirakı və bu istiqamətdə beynəlxalq təşkilatlarla, xüsusilə də UNESCO ilə əməkaşlığı, beynəlxalq sənədlərdə nəzərdə tutulan mədəni irsin qorunması prosesinə ictimaiyyətin və qeyri-dövlət sektorunun cəlb edilməsi öhdəliyinin Azərbaycan Respublikası tərəfindən yerinə yetirilməsinin bariz nümunəsidir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq, milli mədəni irsin qorunması üzrə Heydər Əliyev Fondunun fəaliyyətinin bir hissəsini təşkil edir. Lakin bu fəaliyyət Azərbaycanın qədim və zəngin mədəniyyətinin milli çərçivədən beynəlxalq səviyyəyə çıxmasında, ümumdünya mədəniyyətinin bir parçası olmasında əhəmiyyətli rol oynayır. Hərçənd, Heydər Əliyev Fondu digər beynəlxalq təşkilatlarla da səmərəli əməkdaşlıq edir. Belə ki, 27 aprel 2007-ci il tarixində Heydər Əliyev Fondu ilə İSESCO arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır. Protokolda 5 il müddətinə əməkdaşlığın əsas prinsipləri müəyyən edilir, elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin inkişafı, birgə layihələrin işlənib həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsi nəzərdə tutulur. Hesab edirik ki, türk mədəni irsinin qorunması üzrə Azərbaycan Respublikasının və Heydər Əliyev Fondunun TÜRKSOY ilə sıx əməkdaşlıq etməsi olduqca zəruridir. Nəzərə alsaq ki, Heydər Əliyev Fondu bir sıra aparıcı qurumlarda, məsələn UNESCO, İSESCO, BMT İnkişaf Proqramında qeyri-hökumət təşkilatı qismində təmsil olunur [4, s. 16].

Heydər Əliyev Fondu eyni zamanda beynəlxalq qeyri-hökumət təşkilatları ilə də əməkdaşlıq edir. Bu əməkdaşlıq həm birbaşa, həm də beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilir. Sonuncu əməkdaşlıq forması UNESCO, İSESCO və digər beynəlxalq təşkilatlar yanında məşvərətçi statusa malik olan və həmin təşkilatların tədbirlərində məşvərətçi statusla çıxış edən qeyri-hökumət təşkilatları üçün səciyyəvidir. Məsələn, Heydər Əliyev Fondunun beynəlxalq qeyri-hökumət təşkilatı olan Beynəlxalq Muzeylər Şurası ilə əməkdaşlığı çərçivəsində 2006-cı il 25-27 yanvar tarixlərində Bakı şəhərində Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsi tərəfindən "Muzey menecmenti: Azərbaycan muzeyləri iqtisadi və sosial dəyişikliklərlə üz-üzə" adlı beynəlxalq konfrans təşkil olunmuşdur.

Beləliklə, milli mədəni irsin qorunması cəmiyyətin marağını ehtiva etməklə milli təhükəsizlik ünsürü olaraq çıxış edir. Bu baxımdan Azərbaycan Respublikasının mədəniyyət sahəsindəki dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Bu siyasət daxili və xarici xüsusiyyətlərə malik olmaqla dövlət orqanları tərəfindən və cəmiyyətin iştirakı ilə həyata həyata keçirilir. Sonuncu formaya nümunə qismində Heydər Əliyev Fondunun fəaliyyətini göstərmək olar.

**ƏDƏBIYYAT SİYAHISI:**

*1. Abbasov N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı, 2009.*

*2. Beynəlxalq sənədlər toplusu. I cild. Bakı, Qanun, 2008; II cild. Bakı, Qanun, 2008; III cild. Bakı, Qanun, 2008; IV cild. Bakı, Qanun, 2008; V cild. Bakı, Qanun, 2009.*

*3. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı: ABU nəşriyyatı, 2008.*

*4. Məmmədov R.F. Əfəndiyeva H.E. Azərbaycan Respublikasının tarix və mədəniyyət abidələrinin beynəlxalq-hüquqi qorunması. – Bakı: Səda nəşriyyatı, 2015.*

*5. Süleymanlı S.A. Mədəni irsin qorunması sahəsində beynəlxalq-hüquqi tənzimetmə və Azərbaycan Respublikasının qanunvericiliyi. – Bakı: Azərbaycan nəşriyyatı, 2018.*

*6. Лукашук И.И. Глобализация, государство, право, XX! Век. М, Спарк, 2000.*

*7. Тихомиров Ю.А. Курс сравнительного правоведения. М, 1996.*

*8. Черниченко С.В. Теория международного права. В 2-х томах. Том. 2: Старые и новые теоретические проблемы. М: изд-во НИМП, 1999.*

*9. https://e-qanun.az/framework/25303*

10. https://e-qanun.az/framework/27056
11. https://e-qanun.az/framework/36996

**Protection of national cultural heritage as a priority direction of state policy**

**Alizade Gurbanali Mammadov**
***Baku State University the Department of International private law and European law associate professor, PhD in law***

**Karam Jahangir Mammadov**
***Baku State University Diplomacy and of the department of modern integration processes associate professor, PhD in politics***

**SUMMARY**

In the article, the protection of cultural heritage is analyzed as a priority direction of the state policy of the Republic of Azerbaijan. The features of state policy are examined here. The necessity of international cooperation and the forms of cooperation are analyzed as the main direction of the state policy. In particular, the cooperation of the Republic of Azerbaijan with UNESCO is analyzed. At the same time, the features of the society's participation in cooperation in the field of cultural heritage protection are investigated. In this direction, the activity of the Heydar Aliyev Foundation is analyzed.

**Key words:** *cultural heritage, cultural resources, state policy, culture, national-legal protection, international legal protection.*

**Охрана национального культурного наследия как приоритетное направление государственной политики**

**Ализаде Курбанали Мамедов**
***кафедры Международного частного права и европейского права Бакинского государственного университета доцент, доктор философии по праву***

**Керем Джахангир Мамедов**
***кафедры дипломатии и современных интеграционных процессов Бакинского Государственного Университета доцент, доктор философии по политике***

**РЕЗЮМЕ**

В статье защита культурного наследия анализируется как приоритетное направление государственной политики Азербайджанской Республики. Здесь рассматриваются особенности государственной политики. Необходимость международного сотрудничества и формы сотрудничества анализируются как основного направления государственной политики. В частности, анализируется сотрудничество Азербайджанской Республики с ЮНЕСКО. При этом исследуются особенности участия общества в сотрудничестве в сфере охраны культурного наследия. В этом направлении анализируется деятельность Фонда Гейдара Алиева.

**Ключевые слова:** *культурное наследие, культурные ценности, государственная политика, культура, национально-правовая охрана, международно-правовая охрана.*

*Rəyçi: Hüquq elmləri doktoru Rüstəm Məmmədov*
*Məqalə redaksiyaya daxil olub: 10.02.2026*
*Çapa qəbul olunub: 30.02.2026*

*The date of the admission of the article to the editorial office: 10.02.2026*
*Accepted for publication: 30.02.2026*